Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. 364-369

https://doi.org/10.62837/2025.3.364

HACIYEVA YAQUT MÜBARIZ QIZI
Leksika və Ölkəşünaslıq kafedrası
Gəncə Dövlət Universitetinin Azərbaycan dili kafedrasının dissertantı

BALAŞ AZƏROĞLU POEZIYASINDA DİALEKTIZMLƏR

Açar sözlər: dialektizm, poetik dil, ziddiyyət, norma, ədəbi dil, dialektoloji lüğət, poetik forma
Ключевые слова: диалектим, поэтический язык, противоречие, норма, литературный язык, диалектологический словарь, поэтическая форма
Key words: dialecticism, poetic language, contradiction, norm, literary language, dialectological dictionary, poetic form

Azərbaycan dilinin leksik-semantik sisteminin müxtəlif laylarından məharətlə istifadə etməklə ədəbi dilimizi zənginləşdirməkdə özünəməxsus rolu olan Balaş Azəroğlunun poeziya dilində dialektizmlər xüsusi bir lay təşkil edir. Dialektizmlər vasitəsilə şair və yazıçılar öz əsərlərinin milli koloritini daha da gücləndirir, obrazların xarakterinin açılmasında belə sözlərdən isifadə edərək onların daha da yaddaqalan olmasına nail olur. Məlum olduğu kimi, elm və texnikanın, sivilizasiyanın inkişafı ilə əlaqədar olaraq dialektizmlər öz işləkliyini itirir, dildən çıxır. Bu sözlərin mühafizə olunaraq gələcək nəsillərə ötürülməsində, bir növ yaşamasında da söz sənətkarlarının rolu böyükdür.

Beləliklə, şairin poeziyasından danışarkən birinci növbədə onun əsərlərinin dili, üslubu müəyyənləşdirilməli, üslubi baxımdan dilin zənginliklərindən istifadə üsullarının geniş bir şəkildə tədqiq edilməsi zəruridir. S. Abdullayev yazır: *"Əgər bir yazıçı əsərində məhəlli sözlərsiz, dialektlərsiz və jarqonsuz ötüşə bilmirsə, bu o deməkdir ki, həmin yazıçı ümumxalq ədəbi dil normalarından və bu dilin tarixi inkişaf prosesindən və inkişaf səviyyəsindən xəbərsizdir"*[1, s.158].

Dialekt və şivə sözləri Balaş Azəroğlunun şeir dilində doğmalaşır. Bu doğmalıq dialektizmin qədim leksik qat kimi sözün qorunub saxlanan mənalarını üzə çıxarır, forma və deyim qəliblərində poetik mənanın dolğunlaşmasına səbəb olur. Ana dilinin leksik imkanlarının nəyə qadir olduğunu, onun ifadəlilik imkan və çalarlarını əks etdirir. Bədii- estetik düşüncəyə keçərək şeiri poetik dillə yükləməkdə iştirak edən dialekt leksikası şairin söz seçmək məharəti nəticəsində bədii üslubun tələblərinə cavab verir: Məsələn,

"*Gələnlər qocanın bu hörmətindən,*
Onun qəlbə yatan məhəbbətindən,
Sanki ***sustaldılar,*** *qəzəb də, kin də*
Sovuyub *yox oldu bir an içində"* [4, s.185].

Bu seirdə işlənən "*sustalmaq" sözü* Lerik rayon şivələrin-

də*"susdəlməğ"*şəklində ürəyi getmək [1, s.448]mənasını ifadə edir*, "Sovuyub"*sözü isə ədəbi dilimizdəki dağılmaq, yox olmaq mənalarını ifadə edən sovrulmaq sözünün dialektal variantıdır. Şair bu sözləri işlətməklə özünün şeir dilini xalq danışıq dilinə daha da yaxınlaşdırmış, məhz buna görə də onun dili koloritliyi ilə səciyyələnir.

O yerdə ki, B. Azəroğlu təbiətdən, kənd həyatından yazır, onda onun yazı üslubu folklor kökünə söykənir, canlı xalq danışıq dilinin ənənələrini izləyir. Bu deyim üslubu bütün hallarda özünü doğruldur. Çünki *"xalq nitqi sadə və güdrətlidir, o özündə bir çox nəsillərin zehni əməyinin səmərəsini, xalqın fəlsəfəsini və tarixini ehtiva edir"*[5, s.7].

"Axı bu görkəmin, bu qamətinlə
Oğlum, bizlərə yox, ***yana*** *çəkmisən*"[3, s.29].

Nümunədə işlənən *yan* sözü(yönlük halda yana) yad, özgə mənasını ifadə edir. "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə qeydə alınan bu sözün omonim səciyyəli oluğu, qeyd edilən mənadan əlavə, hananın dayaq ağacı və hissə mənalarnı da ifadə etdiyi göstərilir [1, s.539].Göstərilən nümunədə çəkmək sözü ilə birləşərək frazeoloji birləşmənin tərkib hissəsi kimi çıxış etmişdir: *yana çəkmək,* yəni özgəyə, yada oxşamaq, bənzəmək.

Balaş Azəroğlunun şeirində dialektizmlər misranın ümumi məna yükünün daşınmasında maksimum güc ilə çıxış edir. Şeir mətnindəki hər bir dialektizm ifadə olunan ümumi poetik mənanın vacib bir forma ünsürü, hiss və düşüncələrinin təcəssümu səviyyəsində işlədilir.

"*Hələ də yadımdadır*
Çırağın altında bərq vuran
Bıçağının ***ovxarı"***[3, s.44]

Nümunədə işlənmiş *ovxar* sözü "itilik" mənasını ifadə edir. Qeyd edək ki, bu söz ADDL-də *o:xar* şəklində əksini tapır, yəni ilk hecasındakı o səsinin uzun tələffüz olunduğu göstərilir. Bu sözdən yaranan *o:xarrı* (itilənmiş, iti), *o:xarramax*(itiləmək), *o:xarratmax*(itilətmək) sözləri, eləcə də *o:xarı gedməg*(kütləşmək) frazeoloji ifadəsi də qeyd edilir[5, s.380].

"*Köçri quşlar uçur hər gün cənuba sarı,*
Gərdənbəndə *oxşayır durnaların qatarı"*[3, s.57].

Fars mənşəli olan *gərdənbənd*sözünün "Azərbaycan dilinin izahlı lüğəti"ndə boyunbağı mənasınada işləndiyi qeyd edilir. C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin əsərlərindən nümunələr verilir[4, s.236]. Lakin Salyan dialektində bu söz "xamut" mənasını ifadə edir:-*Gərdənbəndin ipin bərk bağlağınan ki, at yaxşı güc eləsin*[1, s.179]. Heç şübhəsiz, şair burada *gərdənbənd* sözünün boyunbağı mənasını əsas götürmüşdür.

"*Günah sarbandadır, böyük bir nərin*
Ovsarın *gör hara bağlamış naşı"*[3, s.119]

Dəvənin noxtası mənasını ifadə edən *ovsar* sözü *avsar* şəklində Füzuli, *ovsar*

şəklində Beyləqan şivələrində bu mənada işlənir [1, s.29, 383].

Dialektizmlər şeir dilində formal əlamət deyil, poetik formanın elə ünsürüdür ki, onun vasitəsi ilə bədii fikir sadə deyim ölçülərində və onun yaratdığı dəqiq, emosional cizgilərlə təzahür edir. Şair yazır:

*"Dostum **tarlaşmış** eynəyini*
***Hovxurur,** silir"* [3, s.80].

Qeyd edək ki, nümunədə verilmiş *tarlşmış* və *hovxurur* sözləri ADDL-də qeydə alınmamışdır. *Hovxurmaq* sözü ADİL-də belə izah edilir: *"Yarımbükülü barmaqlarını ağzına tutaraq nəfəsi ilə onları qızdırmaq*[1,s.398]. B.Əhmədov bu sözün eimoloji izahını verir: "*Sözün kökü hov kəlməsidir, hovlamaq və hovxurmaq eyni kökdən düzəlib"* [3, s50]. O, *hov* kəlməsini hava sözünün dəyişmiş variantı hesab edir.

Burada *tarlaşmış* sözü isə "tutqunlaşmış" mənasını ifadə edir. *Tar* kökündən yaranmışdır. *Tar* fars dilində tutqun, aydın olmayan deməkdir. Qeyd edəki ki, dilimizdə bu mənada *tor*(gözünə tor gəlmək, zəif görmək), tor sözündən isə *torlaşmaq* (görmənin zəifləməsi), *toran* (alaqaranlıq), *toranlaşmaq* (alaqaranlıqlaşmaq) sözləri yaranmışdır. Demək, *tarlaşmaq* sözü dilimizdə işlək olan *tor, torlaşmaq* sözlərinin dodaq saitli variantıdır.

Qərbi Azərbaycan şivələrində isə *tarraşmax* sözü işlənir.Toyuqların tara çıxması mənsını ifadə edir. Bu sözün əsasındakı *tar* əksər dialekt və şivələrimizdə toyuqların axşamlar üstündə yatdığı ağac mənasında işlənir[1, s.481].

"Deyəndə neçə söz də artırırdı özündən,
*Yalandan danışdığı **bəllənirdi** üzündən"*[4, s.240].

ADDL-də *bəllənmək* sözünün üç müxtəlif mənası verilmişdir: "*1. Yoluxmaq, baş çəkmək; 2. Nişanlamaq, işarə qoymaq, müəyyənləşdirmək; 3. Boş-boş danışmaq"*[5,s.50]. Verilən nümunədə bu sözün, heç şübhəsiz, ikinci, yəni müəyyənləşdirmək mənası əsas götürülmüşdür:*"Yalan danışdığı üzündən müəyyənləşirdi, aydın olurdu".*

*"Gəldi kəndli, gəldi **hampa,***
Gəldi əsnaf, gəldi baqqal"[3, s.242].

Nümunədə işlənən *hampa* sözü varlı mənasını ifadə edir. Qeyd edək ki, bu sözün ADDL-də iki mənası verilmişdir: "ağsaqqal" (Şəkidə) və "varlı, dövlətli" (Füzuli). Lerik rayon şivələrində isə yoldaş, sirdaş mənasında işlənir: - *Novruz biznən hampadu.*

"Axşam hansı evdə qalsan,
*ya Təbriz **çilovu***
yeyərsən,
ya da Qafqaz kababı" [3, s.130].

Nümunədə işlənmiş *çilov* sözünün ADİL-də mənası belə izah edilir: "*Lobya, mərci, əriştə və düyüdən bişirilmiş aş, plov"*[2, s.484]. Bakı dialektində isə

yarmaçilov sözü işlənir, yarmaplov mənasını ifadə edir. Azərbaycan dili dialekt və şivələrində *çilov* sözündən yaranan, aşsüzən mənasını ifadə edən *çilossən, çilo:sən* sözləri işlənir[1, s.102].

Balaş Azəroğlu şeirlərində xalq arasında keçirilən bəzi adətləri də canlandırır, bu zaman məxsus olduğu dialektə uyğun ifadələrdən istifadə edir. Məsələn, o, axır çərşənbənin səhəri günü, günəş çıxmamış su üstünə getmək adətindən belə bəhs edir:

"Yenə el adəti, elin bayramı,
Axır cərşənbəsi, novruz axşamı,
Bu gün ***nov üstünə çıxacaq*** *hamı,*
Qızların qatarı yadıma düşdü" [2, s. 147]

Burada işlənən "*nov üstünəçıxmaq"* şairin yaşadığı yerin dialektinə məxsus ifadədir. Bu adət haqqında yazılır: "*Bəzi yerlərdə bu adət "novbaşı" adlanır. İlk növbədə, insanlar səhər tezdən bulaq kənarına, nov başına gedər, suyun üstündən tullanarlar. Su üstündən tullananda "Allahımız, ruzimizi bol eylə",- deyib, suya buğda atarlar. Şahbuz rayonunun bəzi kəndlərində isə "İlahi, qohumların, ailəmizin ağzını şirin eylə", -deyib, suya kişmiş atarlar. Əl-üzlərini yuyar, sudan bir az da içərlər. İnama görə, bu su dərdlərin dərmanıdır, içən xəstələr şəfa tapar. Çərşənbə suyundan insanlar arasında bir-birinin üstün çiləmə adəti də icra olunur*"[1,133].

Məlumdur ki, nişan mərasimində oğlan evindən qız evinə ətrafı qırmızı lentlərlə bəzədilmiş xüsusi güzgü aparardılar. Buna *bəxt güzgüsü, bəxt aynası* deyərdilər. Gəlini oğlan evinə aparanda da həmin güzgü oğlan yengəsinin, yaxud qızın soldişinin əlində gəlinin yanında gedərdi. Bu mərasimə "güzgü tutmaq" deyərdilər. Şair həmin prosesi belə təsvir edir:

"Gəlin gətirəndə, bizlərdə kəndə,
Qarılar ***qabağa ayna tutardı***
Cavanlar at çapıb fişəng atardı"[3, s.116].

Bu şeir parçasında şair yaşadığı regionun adət-ənənəsinə, danışıq tərzinə uyğun olaraq bu prosesi *"qabağa ayna tutmaq"* şəklində ifadə edir. Məlum olur ki, gəlinin bəxt aynasını yaşlı qadınlar – qarılar götürərmişlər.

Xalq təqviminə görə, kiçik çillədən sonra Boz ay gəlir. Fevralın 20-dən martın 21-nə kimi davam edən bu ayda hava yağışlı, buludlu, günəşli olur. Boz aya xalq arasında müxtəlif adlar verilib: Çilləbeçə, Ağlar-gülər, Alaçalpov. Şair mənsub olduğu dialektə əsasən *Alaçalpov* sözünü poeziya dilinə gətirir:

"Çöldəqar yağır,
Alaçalpov.
Evdə gülqabında nərgiz çiçəyi" [3, s.57]

Yaxud:

"İndi yaylaqda ***Alaçalpov,***
Aranda yağış yağır" [3, s.217]

Şair bu aya məxsus hava dəyişkənliyinin yaratdığ əksliyi çox məharətlə təsvir

etmişdir. Çöldə qar yağır, evdə isə gülqabında nərgiz çiçəyi, yaylaqda alaçalpov, aranda isə yağış yağır. Ümumiyyətlə, Balaş Azəroğlunun dilində xalq ruhuna, milli təfəkkürə bağlılığın ifadəsi olan dialektizmlər saysız-hesabsızdır:*"Yoluna gül səpd el* ***tabaq-tabaq****; "Ya da* ***qələmə*** *tək dümdüz olsaydın; "Şümşad barmaqlar döşlərin üstündə* ***daraqlanıb****; "Bir* ***dəstərxan*** *çörəyim"; "****Sısqa*** *yağışda"; "Əsirdi* ***zağ-zağ****"; "****Kəndidən*** *un qurtardı"; "****Gəlinlər,*** *qızlar* ***hərəsan*** *yatdılar";"Başı Səhənd* ***çalmalı****"; "****Babam*** ***çubuğunu*** *tüstülədərək";* "*Əlində* ***həşyəsi*** *yazılı mis* ***piydəsi****", "qızıl* ***şirazələr***"və s.Qeyd edək ki, bu sözlərin bəziləri ADDL-də öz əksini tapmış, bəziləri isə burada da qeydə alınmamışdır.

Göründüyü kimi, şair daha çox keçmiş həyatı, yaşadığı günləri, mühiti canlandırdıqda dialekt leksikasına müraciət edir. Onun şeirlərində psixoloji mənzərə canlı danışıq sözlərinin, məhəlli dil ünsürlərinin içinə hopur. Bədii deyim biçimləri yerli danışıq tərzinə söykənir.

Xülasə

Dialekt və şivə sözləri Balaş Azəroğlunun şeir dilində doğmalaşır. Bu doğmalıq dialektizmin qədim leksik qat kimi sözün qorunub saxlanan mənalarını üzə çıxarır, forma və deyim qəliblərində poetik mənanın dolğunlaşmasına səbəb olur. Ana dilinin leksik imkanlarının nəyə qadir olduğunu, onun ifadəlilik imkan və çalarlarını əks etdirir. Bədii- estetik düşüncəyə keçərək şeiri poetik dillə yükləməkdə iştirak edən dialekt leksikası şairin söz seçmək məharəti nəticəsində bədii üslubun tələblərinə cavab verir. Məqalədə deyildiyi kimi, şair daha çox keçmiş həyatı, yaşadığı günləri, mühiti canlandırdıqda dialekt leksikasına müraciət edir. Onun şeirlərində psixoloji mənzərə canlı danışıq sözlərinin, məhəlli dil ünsürlərinin içinə hopur. Bədii deyim biçimləri yerli danışıq tərzinə söykənir.

Резюме

Диалектные и акцентные слова являются родными для поэтического языка Балаша Азероглу. Это сродство, как и древний лексический пласт диалектизмов, выявляет сохранившиеся значения слова и приводит к обогащению поэтического смысла формами и идиоматическими моделями. Он отражает то, на что способны лексические возможности родного языка, его выразительные возможности и оттенки. Диалектная лексика, которая участвует в наполнении стихотворения поэтическим языком, переходя к художественно-эстетической мысли, отвечает требованиям художественного стиля в результате мастерства поэта в подборе слов. Как указано в статье, поэт часто прибегает к диалектной лексике, вспоминая свою прошлую жизнь, прожитые дни и окружающую среду. В его стихах психологический ландшафт воплощен в живой устной речи и элементах местного языка. Художественные идиомы основаны на местных речевых моделях.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. 364-369

HACIYEVA YAQUT

DIALECTS IN BALASH AZEROGLU' S POETRY

SUMMARY

Dialect and dialect words are native to Balash Azeroglu's poetic language. This nativeness reveals the preserved meanings of the word as an ancient lexical layer of dialectism, and leads to the enrichment of poetic meaning in forms and idioms. It reflects what the lexical possibilities of the native language are capable of, its expressive possibilities and shades. The dialect lexicon, which participates in loading the poem with poetic language by passing to artistic-aesthetic thought, meets the requirements of the artistic style as a result of the poet's skill in choosing words. As stated in the article, the poet mostly turns to dialect lexicon when reviving his past life, the days he lived, and the environment. In his poems, the psychological landscape is absorbed into living colloquial words and local language elements. Artistic idiom forms are based on the local style of speech.

Ədəbiyyat

1. Abdullayev, S. Dil və bədii qavrayış/ S.Abdullayev. – Bakı: - Yazıçı, – 1984. - 168 s.
2. Azəroğlu, B. Seçilmiş əsərləri / B.Azəroğlu – Bakı: Azərbaycan Dövlət nəşriyyatı , - 1961. -268 s.
3. Azəroğlu, B. Seçilmiş əsərləri / B. Azəroğlu – Bakı: Öndər , -2004. -288s.
4. Azərbaycan dilinin dialektoloji lüğəti / Redaktorlar: A.Axundov, Q.Kazımov, S.Behbudov. - Bakı: Şərq-Qərb, - 2007. - 568 s.
5. Hüseynov, M. Sözün poetikası / M.Hüseynov. – Bakı: Elm və təhsil , - 2010. - 368 s.

Rəyçi : **Telman Ziyatxan oğlu Quliyev**
Filologiya elmlər doktoru, professor